**UOT 316**

# AZƏRBAYCANDA MƏİŞƏT ZORAKILIĞINA QARŞI MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI

**Məftunə İSMAYILOVA*[*]**

Məqalə redaksiyaya daxil olmuşdur: 22 oktyabr 2023; çapa qəbul edilmişdir: 29 noyabr 2023; online-da çap edilmişdir: 25 dekabr 2023.
Received: 22th of October, 2023; accepted: 29th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *beynəlxalq hüquq, qadın hüquqları, gender bərabərliyi, məişət zorakılığı, ailə içi şiddət*

## Giriş

Məişət zorakılığının gender aspektlərinin araşdırılması həm ailə sosiologiyasının, həm də gender sosiologiyasının mühüm istiqamətlərindən birini təşkil edir. Müasir dövrdə ailə institutunun böhranının dərinləşməsi və boşanmaların sayının artması, bilavasitə ailədaxili münaqişə və zorakılığın nəticəsi olaraq təzahür edir.

Məişət zorakılığı yalnız şəxsiyyət səviyyəsində və şəxsi münasibətlərdə deyil, həm də cəmiyyət və ölkə səviyyəsində həyat keyfiyyətinin və sosial rifahın aşağı düşməsinə gətirən amillərdəndir. Məişət zorakılığının iqtisadi nəticələrinin araşdırılması vasitəsilə məlum olmuşdur ki, müxtəlif formalı şiddət böyük iqtisadi itkilərə gətirir. Bir tərəfdən əmək fəaliyyəti məhdudlaşdırılan qadınlar iqtisadi cəhətdən fəal əhalinin müəyyən bir qismini təşkil edirlər. Digər tərəfdən isə məişət zorakılığı nəticəsində müxtəlif formalı xəsarət alan qadınların reabilitasiyası məqsədilə dövlət yüksək məbləğdə vəsait ayırır.

Azərbaycanda məişət zorakılığına qarşı hökumət və ictimai səviyyədə fəaliyyət göstərən obyektlər qurulmuşdur. Azərbaycan hökuməti qadınlara münasibətdə hər cür ayrı-seçkilik və zorakılığa qarşı, qadın hüquqlarının müdafiəsi ilə bağlı qəbul edilmiş başlıca beynəlxalq hüquqi sənədlərə qoşulmuşdur. Belə ki, ölkəmizdə gender münasibətlərinin hüquqi əsasları bu qanunlar üzərində tənzimlənməkdədir.

## Qadınların hüquqlarının təmin edilməsi ilə bağlı olan beynəlxalq sənədlər

Məişət zorakılığı qadınların şəxsiyyət hüquqları və azadlıqlarının pozulmasının, onlara qarşı çevrilən ayrı-seçkiliyin və sosial imkanların məhdudlaşdırılmasının başlıca göstəricisidir. Qərb ölkələrində XX əsrdə sosial yaşamın bütün sahələrində qadınların hüquqlarının təmin edilməsi istiqamətində aşağıdakı hüquqi sənədlər qəbul edilmişdir:

1) 29 iyun 1951-ci ildə Beynəlxalq Əmək Təşkilatının Baş Konfransının 34-cü sessiyasında "Bərabər dəyərli əməyə görə kişilər və qadınlar üçün bərabər əmək haqqı haqqında Konvensiya" [12];

2) BMT Baş Assambleyasının 20 dekabr 1952-ci il tarixli 640 (VII) saylı qətnaməsi ilə "Qadının Siyasi Hüquqları haqqında Konvensiya" [16];

3) 20 iyun 1956-cı ildə "Xaricdə alimentlərin bərpası haqqında Konvensiya" [13];

BMT Baş Assambleyasının 29 yanvar 1957-ci il tarixli 1040 (XI) saylı qətnaməsi ilə "Evli Qadının Vətəndaşlığı haqqında Konvensiya" [14];

4) BMT Baş Assambleyasının 7 noyabr 1962-ci il tarixli 1763 A (XVII) saylı qətnaməsi ilə imza və ratifikasiya üçün "Nikahın bağlanmasına razılıq, nikah yaşı və nikahların qeydiyyatı

[*] *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* maftuna_i@mail.ru

haqqında Konvensiya" [19];

5) BMT Baş Assambleyasının 1 noyabr 1965-ci il tarixli 2018 (XX) saylı qərarı ilə "Nikahın bağlanmasına razılıq, nikah üçün minimum yaş və nikahların qeydiyyatı haqqında Tövsiyə xarakterli Konvensiya" [19];

6) BMT Baş Assambleyasının 18 dekabr 1979-cu il tarixli 34/180 saylı qərarı ilə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya" [15].

7) Qadın hüquqlarının müdafiəsi ilə bağlı BMT-nin Baş Assambleyası tərəfindən 1993-cü ildə "Qadınlara qarşı zorakılığın aradan qaldırılması haqqında Bəyannamə" qəbul edilmişdir. Bəyannamədə göstərilir ki, "Baş Assambleya, bütün insanların bərabərliyi, təhlükəsizliyi, azadlığı, bütövlüyü və ləyaqəti ilə bağlı hüquq və prinsiplərin qadınlara universal tətbiqinə təcili ehtiyac olduğunu dərk edərək, göstərir ki, bu hüquq və prinsiplər beynəlxalq sənədlərdə, o cümlədən "İnsan Hüquqları haqqında Ümumdünya Bəyannaməsi", "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "İqtisadi, Sosial və Mədəni Hüquqlar Haqqında Beynəlxalq Pakt"da, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"da, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya qarşı Konvensiya"da öz əksini tapmışdır [11].

8) BMT Baş Assambleyasının 12 dekabr 1997-ci il tarixli 52/86 saylı qərarı ilə "Cinayətin qarşısının alınması və ədalət məhkəməsində qadınlara qarşı zorakılığın aradan qaldırılması üçün model strategiyalar və praktiki tədbirlər haqqında" sənəd qəbul edilmişdir [20].

9) BMT Baş Assambleyanın 6 oktyabr 1999-cu il tarixli 54/4 saylı qətnaməsi ilə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya Əlavə Protokol" qəbul edilmişdir.

Konvensiya dövlətlərdən "cinslərdən birinin digərindən üstünlüyü və ya kişi və qadınların stereotip rolları ideyasına əsaslanan adət-ənənələri və bütün digər təcrübələri ləğv etmək üçün kişilərin və qadınların sosial və mədəni davranış nümunələrini dəyişdirməyi tələb edir" [21].

10) Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 21 dekabr 2010-cu il tarixli 65/229 saylı qərarı ilə "Qadın Məhbuslarla Müalicə Qaydaları və Qadın Cinayətkarlar üçün Həbsdən Təcrid Olmayan Tədbirlər (Banqkok Qaydaları)" qəbul edilmişdir [18].

11) 2011-ci ilin aprel ayında Avropa Şurası tərəfindən "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası" (İstanbul Konvensiyası) qəbul edilmişdir. İstanbul Konvensiyası qadına münasibətdə zorakılıq və məişət zorakılığı ilə bağlı mövcud beynəlxalq standartları özündə birləşdirmiş oldu. İstanbul Konvensiyası ilk hüquqi sənəd idi ki, iştirakçı-dövlətlərdən məişət zorakılığının bütün formalarının, o cümlədən iqtisadi və psixoloji zorakılığın mahiyyətinin dəqiqləşdirilməsini və onlara görə cinayət məsuliyyətinə cəlb edilməsini əhatə edən qanunların qəbulunu tələb edirdi [12].

12) 2015-ci ildə "Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi" təsdiq edilmişdir. Burada Birləşmiş Millətlər Təşkilatının 2015-ci ildən sonrakı İnkişaf Gündəliyi üzrə Sammitinin Nəticə Sənədi qəbul edilmişdir [17].

Zorakılıqla mübarizə ilə bağlı əksər beynəlxalq və regional sənədlərində üç əsas element qeyd olunur. Bura zorakılığın qarşısının alınması (prevention), zorakılıqdan müdafiə (protection) və effektiv araşdırma (prosecure) aid edilir. Bu üç elementə bəzi sənədlərdə əməkdaşlıq və koordinasiyalı siyasətin formalaşdırılması kimi elementlər də əlavə edilib [9].

**Azərbaycanda qadın hüquqlarının müdafiəsi**

Bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da gender əsaslı məişət zorakılığına məruz qalan əsas qrup qadınlardır. Ölkəmizdə məişət zorakılığı zəminində baş verən cinayət halları aşağıdakı kimi təsnif edilir:

1) qəsdən adam öldürmə;
2) adam öldürməyə cəhd;
3) qəsdən sağlamlığa ağır zərər vurma;

4) qəsdən sağlamlığa az ağır zərər vurma;
5) qəsdən sağlamlığa yüngül zərər vurma;
6) əzab vermə;
7) öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə.

Rəsmi statistikaya əsasən, 2021-ci ildə ölkəmizdə məişət zəminində 1 499 cinayət baş vermişdir ki, onlardan 220-si eyni şəxslər tərəfindən təkrar törədilmişdir. Cinayətlərin böyük bir qismi 62 halı qarşı tərəf sərxoş olduğu vəziyyətdə baş vermişdir. Qəsdən sağlamlığa yüngül zərər vurma məişət zəminində daha çox rast gəlinən zorakılıq formasıdır. Bu zorakılıq forması böyük əksəriyyətlə – 167 hal eyni şəxslər tərəfindən təkrar törədilmişdir. Məişət zorakılığı zamanı çox rast gəlinən fiziki şiddət formaları qəsdən adamöldürmə və qəsdən sağlamlığa ağır zərər vurmadır [3].

Statistika deməyə əsas verir ki, Azərbaycanda ailə münasibətlərində şiddət və zorakılıq amillərinin başlıca göstəricisi iqtisadi amillə bağlıdır. İnsan haqları ilə bağlı cinayətlərin statistikası ümumi olaraq təqdim edildiyindən, burada məişət zorakılığı zəminində insan hüquq və azadlıqlarının pozulması ilə bağlı dəqiq rəqəmlər göstərmək mümkün deyil. Lakin onu da qeyd edə bilərik ki, təsnifatdakı hallar da bilavasitə tərəflərin bu və ya digər maddi tələbləri ilə bağlı hüquqlarının təmin edilməsinə cəhd olaraq qiymətləndirilməlidir.

Azərbaycan dövlətinin qadınlarla bağlı daxili siyasəti beynəlxalq konvensiyalarla möhkəmləndirilmişdir. 1995-ci ildə Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan BMT-nin "Qadınlara qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması" haqqında Konvensiyasına, 2000-ci ildə isə həmin Konvensiyanın Əlavə Protokoluna qoşuldu.

1995-ci ildə Azərbaycan qadınları IV Ümumdünya qadınlar konfransında iştirak etmiş, Pekin Fəaliyyət Platforması qəbul edilmişdir.

1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycanda qadınların rolunun artırılması haqqında" sərəncam imzalanmışdır. 2000-ci ildə "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" 289 saylı Fərman qəbul edilmiş, həmçinin "Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Milli Fəaliyyət Planı 1995-ci ildə dövlətin qoşulduğu "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və Pekin Fəaliyyət Platformasında qəbul edilmiş strategiyalara uyğun tərtib edilmişdir.

Ölkəmizdə 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, 2006-cı ildə Komitə "Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi" adlandırılaraq fəaliyyəti daha da genişləndirilmişdir. 2000-ci ildə ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman vermiş və Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (2000-2005-ci illər) təsdiq etmişdir.

Azərbaycanda gender bərabərliyinin hüquqi əsaslarının möhkəmlənməsində və qadınlara qarşı ayrı-seçkilik formalarının ləğv edilməsində 2006-cı ildə ratifikasiya edilmiş beynəlxalq Konvensiyanın böyük rolu olmuşdur. Bu əsasda təsdiq edilmiş məişət zorakılığının qarşısının alınmasına dair Milli Strategiya və Milli Fəaliyyət Planı ailə münasibətlərinin möhkəmləndirilməsinə yönələn tədbirlərin beynəlxalq standartlara uyğun həyata keçirilməsini nəzərdə tutur.

Azərbaycan 1995-ci ilin 30 iyun tarixində Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasına (CE-DAW) qoşulub və Konvensiyanın Fakultativ Protokolu Azərbaycan Respublikasının 2001- ci il 16 fevral tarixli Qanunu ilə təsdiq edilib [8].

Ölkəmizdə məişət zorakılığının qarşısının alınması və qadınların hüquqlarının müdafiəsi məqsədilə həyata keçirilən tədbirlər əsasında 2006-cı ildə "Qadın və kişilərin bərabər hüquqlarının dövlət təminatı haqqında" qanun, 2007-ci ildə Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş "Demokratik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks Proqramı" və 2010-cu ildə "Məişət zorakılığına qarşı mübarizə haqqında" Qanun qəbul edilmişdir [6, s. 4]. Ölkəmizdə 2010-cu ildə qəbul edilmiş "Məişət zorakılığının qarşısının alınması haqqında"

Azərbaycan Respublikasının Qanununda məişət zorakılığı "yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılıq" kimi müəyyənləşdirilmişdir və bu qanun əsasında məişət zorakılığının doğurduğu "mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlərin müəyyən edildiyi və tənzimləndiyi" göstərilmişdir. Bu qanuna müvafiq olaraq, 19 dekabr 2011-ci ildə Nazirlər Kabineti tərəfindən "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması" haqda 206 №-li Qərar, 19 dekabr 2011-ci il tarixdə "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları" haqda 207 №-li Qərar təsdiq edilmişdir. Nazirlər Kabineti tərəfindən 2012-ci il 24 fevral tarixində "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərin baxılma qaydası" haqda 46 №-li Qərar, 25 aprel 2012-ci il tarixində "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası" haqda 89 №-li Qərar, həmçinin "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları" haqda sənəd təsdiq edilmişdir.

2012-ci il 15 mart tarixində Azərbaycan Respublikasının "Sosial xidmət haqqında" Qanunu qəbul edilmişdir. Həmin Qanunda məişət zorakılığı sahəsində zərər çəkmiş şəxslərə dövlət, bələdiyyə və qeyri-hökumət təşkilatları tərəfindən sosial xidmətin göstərilməsi məsələləri açıqlanmışdır.

2019-cu ildə prezident İlham Əliyev qeyd etmişdir ki, "Azərbaycan kişi və qadın arasında fərq görməyən cəmiyyətlərə inteqrasiya etməyəcəkdir" [10]. Bu yanaşma qadınların məhz onlara xas hüquqlarının (analıq hüquqları) tanınmasına yönələn yanaşmadır.

Azərbaycan Prezidenti 2020-ci il noyabrın 27-də "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" ilə bağlı Sərəncam imzalamışdır. Sərəncamda məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sisteminin formalaşdırılması, təhlükəsizlik tədbirlərinin görülməsi, mühafizə ordenlərinin verilməsi və zərər çəkmiş şəxslərə zəruri yardım göstərilməsi məsələləri məqsəd olaraq müəyyənləşdirilmişdir [7].

**Gender bərabərliyinin təmin edilməsi və məişət zorakılığına qarşı mübarizə**

Gender bərabərliyinin təmin edilməsi və məişət zorakılığına qarşı birgə mübarizə istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə, 2003-cü ildə Bakıda Azərbaycan Respublikası Qadınlarının II qurultayı keçirilmişdir. 2004-cü ildə yaradılmış Heydər Əliyev Fondu və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT ilə birlikdə "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə", "Azərbaycanda məcburi köçkünlər, qaçqınlar və sığınacaq axtaran şəxslər üçün gender əsaslı zorakılığın aradan qaldırılması", 2008-ci ildə "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" adlı beynəlxalq forumlar təşkil edilmişdir. 2010-cu il 24-25 may tarixlərində Bakıda Avropa Şurasına üzv olan ölkələrin gender məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyinin de-yure və de-fakto təmin edilməsi" mövzusuna həsr edilmiş VII konfransı keçirilmiş və Tədbirlər Planı qəbul edilmişdir. BMT-nin İnkişaf Proqramı ilə birgə 2011-2015-ci illəri əhatə edən "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı", "Yeni idarəetmədə qadın liderliyi", "Erkən nikahlara yox" şüarı altında "Erkən nikahlar: 50 suala 50 cavab", "Qadınlara qarşı zorakılığa yox deyək" layihələrini uğurla həyata keçirmiş, "Gender əsaslı zorakılığa qarşı" fəallıq, məişət zorakılığı barəsində məlumatlandırma kampaniyalarında iştirak etmişdir [6, s. 4].

Azərbaycan Respublikasının Konstitusiyası qadınların kişilərlə bərabər hüquqlarını təsdiqləyir (Maddə 25), hər kəsə şəxsi toxunulmazlıq hüququ verir (Maddı 32), nikaha girmədə zorakılığı qəbul etmir (maddə 34.2), ər ilə arvadın hüquqlarının bərabərliyini elan edir (maddə 34.4). Konstitusiyaya görə, heç bir vəziyyətdə insanın ləyaqətinin alçaldılmasına icazə verilmir (maddə 46.2), kiməsə qarşı işgəncə və əzab verilməsi qadağan edilir (46.3) [4].

Azərbaycan Respublikasının Konstitusiyasının 48 maddədən ibarət "Əsas insan və və- təndaş

hüquqları və azadlıqları"na dair üçüncü fəslində təqdim edilən bütün haqlar qadın və kişilərə bərabər səviyyədə aid edilir, heç bir gender ayrı-seçkiliyi nəzərdə tutulmur.

Azərbaycan Respublikası Ailə məcəlləsinin Ailə hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı II fəsli maddə 6-da göstərilir ki, "Ailənin bir üzvü öz hüquqlarını həyata keçirərkən və vəzifələrini yerinə yetirərkən ailənin başqa üzvlərinin və digər vətəndaşların hüquqlarını, azadlıqlarını və qanuni mənafelərini pozmamalıdır". Ər-arvadın hüquqları və vəzifələri ilə bağlı üçüncü bölmə, 6-cı fəsildə maddə 29 (4)-də qeyd edilir ki, "Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar" [1].

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsində döymə,

158.1. məişət zəminində psixi zorakılıq maddələrinə görə cərimə və inzibati həbs nəzərdə tutulmuşdur [3]. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində qadınların müdafiəsini təmin edən maddələr, o cümlədən cinsi zorakılığa (108-ci maddə), özünü öldürmə həddinə çatdırmaya (125-ci maddə), qəsdən sağlamlığa müxtəlif dərəcəli zərər yetirmək məqsədilə edilən zorakılıq nəticəsində sağlamlığın və əmək qabiliyyətinin itirilməsinə (126,127, 128-ci maddələr), zorakı davranış və davamlı döyülmələrlə müşayiət olunan işgəncə verməyə (133-cü maddə), həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə (149-153-cü maddələr), qadını nikaha daxil olmağa məcbur etmə (176-1.1.), erkən nikaha məcbur etmə (176- 1.2.), qadınların hüquqlarının məhdudlaşdırılması (164-cü maddə) maddələri daxil edilmişdir [2].

Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və məişət zorakılığının qarşısının alınması istiqamətində davamlı olaraq təkmilləşdirilən qanunlar yalnız ölkəmizdə deyil, bütün dünyada qadın və qızların insan hüquqlarının təmin edilməsində hələ də çətinlik çəkir.

## Nəticə

Azərbaycan ailə modeli öz mənəvi təməllərinin bəzi səciyyəvi amilləri ilə seçilir. Bu fərqləndirici xüsusiyyətlər həm müsbət, həm də mənfi daşıyıcılarla müəyyənləşir. Ailə daxili münasibətlərin formalaşmasının əsasında cəmiyyətdə qadına və kişiyə, anaya və ataya, övladlara olan sosial tələblər və stereotiplər dayanır. Müasir Azərbaycanlı ailəsinin və ailə modelinin formalaşmasında cəmiyyətin gözləntiləri başlıca təsiredici amil kimi çıxış edir.

Məişət zorakılığı qadınların şəxsiyyət hüquqları və azadlıqlarının pozulmasının, onlara qarşı çevrilən ayrı-seçkiliyin və sosial imkanların məhdudlaşdırılmasının başlıca göstəricisidir. Cəmiyyətimizdə məişət zorakılığının mövcudluğu, bu problemin tədqiqi və qarşısının alınması ilə bağlı fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi zərurəti genişlənməkdədir.

Məişət zorakılığı yalnız şəxsiyyət səviyyəsində və şəxsi münasibətlərdə deyil, həm də cəmiyyət və ölkə səviyyəsində həyat keyfiyyətinin və sosial rifahın aşağı düşməsinə gətirən amillərdəndir. Məişət zorakılığının iqtisadi nəticələrinin araşdırılması nəticəsində məlum olmuşdur ki, müxtəlif formalı şiddət böyük iqtisadi itkilərə gətirir. Bir tərəfdən əmək fəaliyyəti məhdudlaşdırılan qadınlar iqtisadi fəal əhalinin müəyyən bir qismini təşkil edirlər. Digər tərəfdən məişət zorakılığı nəticəsində müxtəlif formalı xəsarət alan qadınların reabilitasiyası məqsədilə dövlət hiss ediləcək məbləğdə vəsait ayırır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Ailə Məcəlləsi (https://www.e-qanun.az/framework/46946).
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (https://anticor.hse.ru/assets/upload/80_azer_uk.pdf).
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (https://faolex.fao.org/docs/pdf/aze209956.pdf).
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2002, 125 s.
5. Bünyadov Z. Azərbaycanda məişət zorakılığının qarşısının alınması, insan alverinə qarşı mübarizə. Məişət Zorakılığı Hallarının Qarşısının Alınması İstiqamətində Sosial İşin Tətbiqi Beynəlxalq

Elmi-Praktiki Konfransının Materialları. Bakı: ADMİU, 2021, 220 s.
6. Əliyeva İ. Ölkəmizdə qadın hüquqlarının müdafiəsinə etibarlı təminat mexanizmləri mövcuddur//. Azərbaycan, 2014, 25 noyabr, s. 4.
7. Hakıyeva S. Məişət zorakılığı: adi məişət hadisəsi, yoxsa insanlığın bəlası? (https://azertag.az/xeber/2614745).
8. Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində Ailə, Qadin və Uşaq Problemləri Üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətlər əsasında aparılmış araşdırmaya dair Hesabat. Bakı: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. 2021, 44s.
9. Muxtarova N. Azərbaycanda məişət zorakılığı zərərçəkənləri üçün sığınacaqlar (https://agora-az.org/az%C9%99rbaycanda- m%C9%99is%C9%99t-zorakiligi z%C9%99r%C9%99rc%C9%99k%C9%99nl%C9%99ri-ucun-siginacaqlar-v%C9%99- onlarin-minimum-standartlari/).
10. «Азербайджан не будет интегрироваться в Европу, которая притесняет ислам и не различает мужчину и женщину» (https://jam- news.net/ru/откровения-президента-удивили-и-шо/)27 ноября 2019 г.
11. Декларация об искоренении насилия в отношении женщин (https://www.un.org/ru/documents/decl_conv/declarations/violence.shtml).
12. Комитет по ликвидации дискриминации в отношении женщин, «Заключительные замечания по восьмому периодическому докладу Беларуси», 18 ноября 2016 г., 22(e) (CEDAW/C/BLR/CO/8, п. https://undocs.org/Home/Mobile?FinalSymbol=CEDAW%2FC%2FBLR%2FCO%2F8& Language=E&DeviceType=Desktop&LangRequested=False/)
13. Конвенция о взыскании за границей алиментов. Принята 20 июня 1956 года. (https://www.un.org/ru/documents/decl_conv/conventions/alimony.shtml).
14. Конвенция о гражданстве замужней женщины. Принята резолюцией 1040 (XI) Генеральной Ассамблеи от 29 января 1957 года (https://www.un.org/ru/documents/decl_conv/conventions/married_women_nationality.sht ml).
15. Конвенция о ликвидации всех форм дискриминации в отношении женщин. Принята резолюцией 34/180 Генеральной Ассамблеи от 18 декабря 1979 года. // (https://www.un.org/ru/documents/decl_conv/conventions/cedaw.shtml).
16. Конвенция о политических правах женщины. Принята резолюцией 640 (VII) Генеральной Ассамблеи от 20 декабря 1952 года (https://www.un.org/ru/documents/decl_conv/conventions/women_politrights.shtml).
17. Повестка дня в области устойчивого развития на период до 2030 года-итоговый документ саммита Организации Объединенных Наций по принятию повестки дня в области развития на период после 2015 года: Преобразование нашего мира (https://www.un.org/ru/documents/decl_conv/conv_women.shtml).
18. Правила Организации Объединенных Наций, касающиеся обращения с женщинами-заключенными и мер наказания для женщин-правонарушителей, не связанных с лишением свободы (Бангкокские правила) (https://www.un.org/ru/documents/decl_conv/conventions/bangkok_rules.shtml).
19. Рекомендация о согласии на вступление в брак, минимальном брачном возрасте и регистрации браков. Принята резолюцией 2018 (XX) Генеральной Ассамблеи от 1 ноября 1965 года (https://www.un.org/ru/documents/decl_conv/conventions/wedding.shtml/).
20. Типовые стратегии и практические меры по искоренению насилия в отношении женщин в области предупреждения преступности и уголовного правосудия. Приняты резолюцией 52/86 Генеральной Ассамблеи от 12 декабря 1997 года (https://www.un.org/ru/documents/decl_conv/conventions/strategies_to_elim_violence.sht ml).
21. Факультативный протокол к Конвенции о ликвидации всех форм дискриминации в отношении женщин (https://www.un.org/ru/documents/decl_conv/conventions/womendiscrim_prot.shtml).

***Резюме***

***Мафтуна Исмаилова***

***Правовая основа борьбы с бытовым насилием в Азербайджане***

Азербайджанский народ имеет уникальную модель семьи, основанную на национальных традициях. Однако азербайджанская семья и семейные отношения, на которые серьезно влияют современные глобальные отношения, продолжают деградировать. Основная причина этого– недостаточная открытость инновациям, трудности, проявляющиеся в правильной оценке и восприятии новых тенденций, отражающихся в общественных отношениях. У каждого народа есть своя модель семьи, но современные социальные и моральные тенденции и критерии, стандартизационная особенность глобализации делают актуальным принятие новых показателей национальной модели семьи, что приводит к постепенной трансформации ее собственных характеристик.

Экономические и социальные реформы, направленные на снижение социального неравенства и бедности в обществе, требуют решения проблем получения людьми образования, обеспечения занятости, повышения благосостояния семей. Систематические действия в направлении обеспечения прав человека и предотвращения всех видов дискриминации могут создать условия для обеспечения гендерного равенства и ликвидации, прежде всего, экономических и социальных форм домашнего насилия. Вопрос укрепления правовых основ действий, связанных с ликвидацией домашнего насилия или насилия в семье, остается актуальным. Принятые международные документы по вопросам домашнего насилия требуют постоянного совершенствования. Таким образом, даже если благосостояние людей улучшится и будут обеспечены необходимые факторы для сосуществования, домашнее насилие не теряет своей актуальности.

Несмотря на существование десятков документов, принятых по инициативе международного сообщества, домашнее насилие фиксируется даже в самых развитых с социально-экономической точки зрения странах мира.

В Азербайджанской Республике осуществляется системная деятельность, предусматривающая обеспечение гендерного равенства, ссылаясь на международное право. В нашей стране в рамках формирования правовой основы гендерной политики ратифицированы конвенции и другие правовые документы, принятые международными организациями. На основе этих источников в нашей стране сформирована правовая база по предотвращению гендерного домашнего насилия.

**Ключевые слова:** *международное право, права женщин, гендерное равенство, домашнее насилие, домашнее насилие.*

***Summary***

***Maftuna Ismayılova***

***Legal basıs of the fight agaınst domestıc vıolence ın Azerbaıjan***

The Azerbaijani people have a unique family model based on national traditions. However, the Azerbaijani family and family relations, which are seriously affected by modern global relations, continue to degrade. The main reason for this is the lack of openness to innovations, the difficulties manifested in the correct assessment and perception of new trends reflected in social relations. Each nation has its own family model, but modern social and moral trends and criteria, the standardization feature of globalization make the adoption of new indicators of the national family model urgent, which leads to the gradual transformation of its own characteristics.

Economic and social reforms aimed at reducing social inequality and poverty in society require solving the problems of people getting education, job security, and improving the well- being of families. Systematic action in the direction of guaranteeing human rights and preventing all kinds of discrimination can create conditions for ensuring gender equality and eliminating primarily economic and social forms of domestic violence. The issue of strengthening the legal bases of action related to the elimination of domestic

violence or domestic violence remains relevant. Accepted international documents on domestic violence require continuous improvement. So, even if people's well-being improves and the necessary factors for coexistence are provided, domestic violence does not lose its relevance.

Despite the existence of dozens of documents adopted by the initiative of the international community, domestic violence is recorded even in the most developed countries of the world from a socio-economic point of view.

In the Republic of Azerbaijan, a systematic activity is carried out, which provides for the provision of gender equality, referring to international law. In our country, the convention and other legal documents adopted by international organizations are ratified in the formation of the legal basis of gender policy. On the basis of those sources, a legal framework for the prevention of gender-based domestic violence has been formed in our country.

**Keywords:** *international law, women's rights, gender equality, domestic violence, domestic violence*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.